# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

Rüb ərzində sənaye müəssisələrində çalışan 1.555 nəfər işçinin orta aylıq nominal əmək haqqı 282 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 5.219 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 4.912 min manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 977,3 min manat, yaxud 15,8 % azalmışdır.

2003-cü ilin oktyabr ayından 1 aprel 2017-ci ilədək 14.132-si daimi olmaqla, 15.931 yeni iş yeri açılmışdır. Rüb ərzində açılmış yeni iş yerlərinin sayı 866 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Rayon məşğulluq mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 675 nəfərdən 291 nəfər münasib işlə təmin edilmiş, 11 nəfərə işsizlik ststusu verilmiş, 12 nəfər işsiş vətəndaşa müavinət təyin edilmişdir.

Rüb ərzində mənzil istismar və kommunal müəssisələr kombinatında 108 nəfər, Qəbələ Təmir Tikinti Şirkəti MMC-də 110 nəfər, Ağsu Regional Qaz İstismarı İdarəsinin Qəbələ Xidmət Sahəsində 15 nəfər, 6 saylı Texnoloji Nəqliyyat Departamentində 10 nəfər, Azərişıq ASC Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsində 7 nəfər, Qəbələ Beynəlxalq Hava Limanında 20 nəfər olmaqla, cəmi 270 nəfər müvafiq işlə təmin olunmuşdur.

Qeyri məşğul əhalidən 20 nəfər işaxtaran qadın xalçaçılıq üzrə peşə kursuna cəlb edilmişdir

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 aprel 2016-cı il tarixli, 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmişdir. Rüb ərzində 3-ü xidmət, 13-ü kənd təsərrüfatı sahəsində olmaqla 16 nəfər özünüməşğulluq proqramı iştirakçısı öz biznesinə başlamaq üçün tələb olunan aktivlərlə təmin olunmuşdur.

Rayonun yerli gəlirləri 2017-ci ilin birinci rübünün yekunlarına görə 2.231,9 min manat proqnoza qarşı 2.274,3 min manat—101,9 % və ya 42,4 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 1.119,1 min manat proqnoza qarşı 1.135,7 min manat—101,5 % və ya 16,6 min manat çox, yerli xərcləri 1.619,2 min manat proqnoza qarşı 1.182,1 min manat—73,0 % və ya 437,1 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 1.107,0 min manat proqnoza qarşı 1.132,5 min manat—102,3 % və ya 25,5 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 5-i - torpaq vergisi, əlavə dəyər vergisi, sadələşdirilmiş vergi, icarə haqqı və sair daxilolmalar üzrə proqnoz tapşırıqlar kəsirlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 61,8 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 78,4 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 16,6 min manat çox yerinə yetirilmişdir.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 30.100,2 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 2.535,3 min manata qarşı 2.188,4 min manat vəsait toplanaraq rüblük yığım planı 86,3 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 46,5 %, dövlət müəssisələri üzrə 55,6 %, ticarət xidməti üzrə 93,6 %, özəl sənaye üzrə 90,4 %, əhali qrupu üzrə isə 95,8 % olmuşdur.



10/6 kV-luq hava xəttinin 3 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Nic, Bum, Zarağan, Mıxlıqovaq elektrik verilişi xətlərində 50 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 6750 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 3 ədəd 10/0,4 kV-luq transformator yarımstansiyalarında 250 amperlik ayırıcı quraşdırılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 18.646,5 min kubmetr təbii qaz istehlak edilmiş, 2.504,2 min manata qarşı 1.941,1 min manat vəsait toplanaraq, ümumi yığım məbləği 77,5 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 79,4 %, büdcə təşkilatları üzrə 46,5 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 95,1 %, kommunal təşkilatlar üzrə isə 146,0 % təşkil etmişdir.

Rüb ərzində 636 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 17.179-a çatdırılmışdır.

Qəbələ Su-kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi küçəsində təmir-bərpa işləri aparılmış, su sızmalarının qarşısı alınmışdır. Muxtar Abduyev küçəsində gücü 100 kubmetr olan su nasosu təmir olunaraq istifadəyə verilmiş, müxtəlif diametrli 52 metr kanalizasiya xətti bərpa olunmuşdur. Zarağan qəsəbəsində məcburi köçkünlər üçün inşa edilmiş şəhərcikdə 1 ədəd su nasosu dəyişdirilmiş, eyni zamanda 246 ədəd su sayğacı quraşdırılmışdır. İsmayıl Bəy, Heydər Əliyev, İmadəddin Nəsimi küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmış, axıntıların qarşısı alınmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində, çirkab suları üçün nəzərdə tutulmuş təmizləyici qurğuda betonlama işləri aparılır. Rüb ərzində 132,7 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 76 %-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 80 %, büdcə üzrə 49 %, kommersiya və digər təşkilatlar üzrə 92 % təşkil etmişdir.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2015-ci il tarixli Sərəncamına əsasən 2016-cı ildə Qəbələ şəhərində, Vəndam qəsəbəsində və Zirik kəndində, 1 iyul 2016-cı il tarixli Sərəncamına əsasən isə Mıxlıqovaq, Zarağan, Məlikli kəndlərində subartezian quyuları qazılaraq istifadəyə verilmişdir.

Bunlardan əlavə Mıxlıqovaq kəndində əlavə olaraq yeni subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur.

Rayonun yaşayış məntəqələrinin suvarma suyu ilə təmin edilməsi üçün suvarma sistemləri idarəsi tərəfindən mövcud su kanalları 91 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 184 min kubmetr çay məcrası daş və qumdan təmizlənmişdir.

Rayon mənzil istismar və kommunal müəssisələr kombinatı rüb ərzində şəhər təsərrüfatına 118,6 min manat, ictimai yaşayış binalarına 12,9 min manat, idarə və müəssisələrə 16,7 min manat, kommersiya obyektlərinə 2,4 min manat və fərdi yaşayış evlərinə 1,3 min manat olmaqla cəmi 151,9 min manat dəyərində kommunal xidmətlər göstərmişdir.

"10 nömrəli Yol İstismarı" MMC tərəfindən 243,8 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 301,0 min manat tarif gəliri proqnozuna qarşı 302,3 min manat gəlir əldə edərək, proqnoz tapşırığı 100,4 % əməl etmişdir. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Rüb ərzində şəhər və kənd əhalisinə 110 ədəd telefon çəkilmiş, 499 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 4.759 nəfər təşkil edir. Şəhər və kənd telefon şəbəkələrində 48 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilərək yeni dəmir dirəklərlə əvəz edilmişdir. Hacılalı kənd EATS müvəqqəti yerləşdirildiyi binadan yeni tikilmiş binaya köçürülmüşdür. Hazırda Zarağan kənd EATS-nin xətt şəbəkəsindən Daşca kəndi istiqamətində 30 nömrəlik telefon xətlərinin çəkilməsi işlərinə başlanılmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 74,7 min manata qarşı 83,0 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 111,1 % yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 17,6 min manat artım olmuşdur.

Dövlər Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində 2017-ci ilin I rübü ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 1.100,3 min manata qarşı 1.080,1 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 98,2 % əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 421,6 min manata qarşı 414,3 min manat və ya 98,3 %, qeyri-büdcə təşkilatları üzrə isə, 678,7 min manata qarşı 665,8 min manat və ya 98,1 % olmuşdur. 2017-ci ilin ilk rübü ərzində 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 528,3 min manat və ya 33% az, o cümlədən, büdcə təşkilatları üzrə 638,5 min manat və ya 60 % az, qeyri-büdcə təşkilatları üzrə isə, 110,2 min manat və ya 20 % çox məcburi dövlət sığorta haqları toplanmışdır.

Birinci rüb ərzində 823 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 20-si hüquqi, 803-ü fiziki şəxs olmuşdur. 01 aprel 2017-ci il vəziyyətinə şöbə üzrə 11.630 pensiya işi üzrə 11.918 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 6.018,8 min manat pensiya, 114,1 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2006,3 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 172 manat 42 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 5.000,0 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə 3.943 hərəkətdə olan sosial müavinət, 503 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 313,8 min manat təşkil edir. Bununla yanaşı şöbədə 845 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

**Hörmətli tədbir iştirakçıları!**

2017-ci ilin birinci rübündə rayon məhkəməsinin inzibati binası və kənd təsərrüfatı idarəsinin inzibati-laboratoriya binası obyektlərində son tamamlama işləri aparılmış, Qəbələ Peşə Məktəbində və atçılıq mərkəzində inşaat işləri davam etdirilmişdir.

Ötən rüb ərzində şəhərin Muxtar Abduyev küçəsində 5 ədəd beşmərtəbəli binaların dam örtüklərinin dəyişdirilməsinə, xalça toxuculuğu müəssisəsinin tikintisinə və Heydər Əliyev prospektində əsaslı təmir işlərinə başlanılmışdır.

Tikintisi yarımçıq qalmış "Qafqaz Aqua Land Hotel", "Qafqaz Diamond Akvapark", Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, rayon prokurorluğunun və gömrük akademiyasının inzibati binaları və şəhərin içməli su və kanalizasiya sisteminin yenidənqurulması keçid obyektlərində tikinti işlərinin bu il davam etdirilməsi nəzərdə tutulmuşdur.

**Hörmətli tədbir iştirakçıları!**

Rayon təhsil şöbəsi 2016-2017-ci dərs ilinin birinci yarımilini yüksək nəticələrlə başa vurmuş, ümumitəhsil məktəbləri üzrə müvəffəqiyyət faizi 99,5 %, keyfiyyət göstəricisi 62,8 % olmuşdur.

15 yanvar 2017-ci il tarixdə 318 nəfər IX-XI sinif şagirdi olimpiadaların rayon mərhələsində iştirak etmiş, yüksək nəticə göstərən 85 nəfər şagird Şəki şəhərində keçirilən zona olimpiadasında iştirak etmişlər. Zona yarışında iştirak edən şagirdlərin səkkiz nəfəri respublika turuna vəsiqə qazanmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Quliyeva Dünya Şamil qızı qalib gəlmiş və respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Təhsil Nazirliyinin 6 noyabr 2014-cü il tarixli kollegiya iclasının qərarına əsasən birinci siniflərə qəbul üçün fevral ayında komissiyalar yaradılmışdır.

Həmçinin rayonumuzda fəaliyyət göstərən 23 məktəbəqədər təhsil müəssisəsinin maddi-texniki vəziyyətin yaxşılaşdırılması istiqamətində də xeyli işlər görülmüşdür.

(Ardı 4-cü səhifədə).